*İlahə Müslüm qızı KƏRİMOVA*
*Magistrant AKU*
*kerimova.ilahe2022@gmail.com*
*Ülkər Xəlil qızı MAHMUDOVA*
*Coğrafiya üzrə fəlsəfə doktoru, dosent*

# AZƏRBAYCANIN KƏND YERLƏRİNDƏ EKOLOJİ VƏZİYYƏT VƏ ONUN SOSİAL NƏTİCƏLƏRİ

***Xülasə***

Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra müxtəlif problemlərlə yanaşı həm də ekoloji problemlərlə üz-üzə qalmışdır. Bu problemlərin qlobal və milli aspektlərinin qarşılıqlı təsiri nəzərə alınmalıdır. Rayon və kəndlərin, işğaldan azad olunmuş ərazilərin yenidən tikilib bərpa edilməsi üçün vacib olan bir çox məsələlər bu məqalədə göstərilir.

Müasir dünya artıq yeni minilliyə qədəm qoymuşdur. Burada kəmiyyət və keyfiyyət xarakteri daşıyan dəyişikliklər baş vermişdir.

***Açar sözlər: sosial, ekoloji vəziyyət, kənd sosiologiyası, vətəndaşların ekoloji durumu.***

***

**Heydər Əliyev: “Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız!”**

Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması dövlət siyasətində prioritet məsələlərdən biridir.

Sivilizasiyanın müasir mərhələsində bəşəriyyətin qarşısında duran ən qlobal problemlərdən biri təbiətdən və onun sərvətlərindən səmərəli istifadə etməkdir. Torpaq örtüyü ən qiymətli sərvət olduğu üçün gələcək nəsillərə qoruyub saxlamaq bəşəriyyətin ən ümdə vəzifəsidir [1].

Elmi-texniki inqilab, əmək məhsuldarlığının artması,Yer kürəsi əhalisinin sayının çoxalması, onların tərəqqiyə can atması insanları tələb olunan məhsullar bolluğuna gətirib çıxartdı.Lakin o, bir çox qlobal problemlərin səbəbkarı olmaqla yanaşı,göstərdi ki,bizim ziddiyyətli dünyamız qarşılıqlı əlaqə və qarşılığlı aslılıq şəraitində olaraq ölkələr və xalqların arasında olan qarşıdurma əvəzinə sivilizasiya və Yer üzərində həyatı xilas etmək naminə, onların cəhdlərinin birləşməsini təmin edir.

Azərbaycanın müstəqil bir dövlət kimi dünya inteqrasiyasına daxil olması zəmanəmizin tələbi olduğu kimi, ölkəmizdə Ekoloji kənd təsərrüfatı hərəkatının genişlənməsi tarixi bir zərurətdir. Eyni zamanda Azərbaycanın bugünkü sosial-iqtisadi mühitində ekoloji kənd təsərrüfatına keçidi zəruri edən çox ciddi səbəblər mövcuddur.Ekoloji Kənd Təsərrüfatı Hərəkatını bir proses kimi qiymətləndirsək, görərik ki, inkişafın bütün mərhələlərində əhalinin müxtəlif təbəqələrinin maarifləndirilməsi və təhsili bu prosesin əsas tərkib hissələrindən biri olmuşdur və indi də qalmaqdadır [2].

Ekoloji vəziyyət hər şeydən əvvəl insanın yaşadığı mühiti,evini qoruyub saxlaması, aydın səma altında onun mümkün qədər təbii yaşamasına təminatdan ibarətdir.Lakin təbiətə insanın məqsədəuyğun münasibəti nə qədər fəal olsa da, son nəticədə məhsul istehsalının çoxalması ümumi rifahı yüksəltsə də ona mənfi təsirlər göstərir.

Şəhər kimi kənd də sosiologiyanın mühüm tədqiqat obyektlərindən birini təşkil edir.Kənd cəmiyyətin digər yarımsistemidir.Bu mənada o, şəhər ilə birlikdə konkret cəmiyyətin bir çox cəhətlərinə malikdir,sosial-ərazi birliyinin ümumi strukturunun tərkib hissəsi kimi daxili struktura malikdir. Kənd yaşayış məskəni özünün bir sıra əlamətlərinə görə şəhərdən fərqlənir [3 s.49-51].

Hər şeydən əvvəl, kənd yaşayış birliyi özünün bütün əsas xarakteristikasına görə şəhərə əksdir. Burada maddi-əşya mühiti, təbii-coğrafi-ekoloji şərait ilə əlaqədar daha möhkəmdir. Digər tərəfdən, ilk baxışdan kəndin geniş ərazidə yerləşməsinə baxmayaraq burada əhalinin təmərküzləşməsi olduqca kiçik bir ərazini əhatə edir.Burada insanların əsas məşğuliyyəti-kənd təsərrüfatı əməyidir, əhalinin peşə-sosial tərkibi yekcinsdir.Kəndin sosial strukturunda qohumluq münasibətləri daha çox üstünlük təşkil edir.Bütün mənəvi -əxlaqi dəyərlər ənənəvilik prinsipinə söykənir və yeni nəsil əksər hallarda öz həyatlarını keçmişin mühafizəkar qaydalarına uyğun olaraq qururlar. Deməli, maddi və mənəvi münasibətlərdə daim köhnə normaların, qaydaların və adət-ənənələrin hökmran rol oynaması istər-istəməz kənd həyat tərzini müasir dinamik inkişafdan bütün zamanlarda ayırmışdır.

İnsan-təbiət - cəmiyyət arasında münasibətlər sosial-iqtisadi, təsərrüfat, hüquqi, mədəni və s. münasibətlər sistemi kimi səciyyələndirilir. Bu problemləri üç qurupa bölmək olar:

1.Azərbaycanda ekoloji problemlər və onların həlli yolları;

2.Ekoloji problemlərin həllinə yardım edə biləcək təşkilatların yaradılması;

3.Ekoloji problemlərin həlli yollarının müəyyən olunması.

Hal-hazırda ekoloji problemlər, ətraf mühitin qorunub saxlanılması, onun insanların səhhəti ilə bağlılığı və əlaqəsi bir sıra beynəlxalq təşkilatlar tərəfindən öyrənilir və onların nizama salınmasına təsir göstərən proqramlar hazırlanır.Bunlardan dünya səviyyəsində olan təşkilatlar: Ümumdünya Səhiyyə Təşkilatı, Qrinpis, Kioto Müqaviləsi, İssıkkul Forumu, Nevada-Semipalatinsk hərəkatı, Alimlərin Paqouş hərəkatı, Yaşıllar hərəkatı və Yaşıllar partiyaları, Dini Təşkilatlar bu problemə təsir göstərirlər.

Azərbaycan Respublikası ərazisinin təbii və coğrafi şəraitinin unikallığı burada flora və faunanın növ müxtəlifliyinin rəngarəngliyinə şərait yaratmışdır. Yer kürəsində mövcud olan 11 iqlim tipinin 9-na Azərbaycanda təsadüf edilir. Bu amil ölkədə zəngin biomüxtəlifliyin formalaşmasında mühüm rol oynayır. Ölkə ərazisinin 12 faizi meşə ilə örtülüdür, 10,3 faizini isə xüsusi

mühafizə olunan təbiət əraziləri təşkil edir.

İqtisadiyyatın inkişafı, demoqrafik artım, əhalinin gəlir səviyyəsinin yüksəlməsi hesabına istehlakın artması, iqlim dəyişmələri və digər səbəblər ətraf mühitə mənfi təsirin artması ilə nəticələnmişdir.Bu da Azərbaycanın rayon və kənd təsərrüfatlarına təsir göstərir.

Su hövzələrinin tullantı suları ilə çirkləndirilməsi, atmosfer havasına zərərli qazların atılması, biomüxtəlifliyin azalması, torpaqların eroziyaya uğraması və şoranlaşması, tullantıların idarə olunması sahəsindəki çatışmazlıqlar mövcud ekoloji problemlər sırasında hesab olunur və kəndlərin sosial durumuna mənfi təsir göstərir.

Azərbaycan Respublikasının Qarabağ regionunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməklə, uzun müddət işğal altında saxlanılması nəticəsində həmin ərazilərdə ətraf mühitə, bioloji müxtəlifliyə, o cümlədən flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə zərər vurulmuş, yerlə-yeksan edilmiş,qiymətli ağac növləri ilə zəngin meşələr, eləcə də təbiət abidələri məqsədli şəkildə talan olunmuşdur.İşğaldan əvvəl Qarabağ regionu iri kənd təsərrüfatı regionu idi. Əlverişli dağarası və dağətəyi düzənlikləri, hamar səthi yaylaqları olan və yaxşı rütubətlənən Kiçik Qafqazın işğal olunmuş hissəsi kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin inkişafına geniş imkan yaradırdı. Kəndlərdə taxılçılıq, üzümçülük, yem, tütünçülük, kartof, pambıqçılıq, ətçilik-südlük heyvandarlıq və xüsusilə qoyunçuluq daha üstün yer tuturdu.

2020-ci ildə region azad edildikdən sonra “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ekoloji tarazlığın bərpa olunması istiqamətində meşə ehtiyatlarının, fauna və floranın, xüsusi mühafizə olunan təbiət ərazilərinin, su ehtiyatlarının, faydalı qazıntı yataqlarının qiymətləndirilməsi işlərinə başlanılmışdır. Bütün bunlarla yanaşı regionun şəhər və kəndlərində təzədən yeni tikinti işlərinin gedişi ilə əlaqəli olaraq sakinlər öz el-obalarına aramla köşürülür [4].

Son illərdə ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması, o cümlədən təbii sərvətlərdən səmərəli istifadə, çirklənmiş ərazilərin bərpası, su ehtiyatlarının mühafizəsi, xüsusi mühafizə olunan təbiət ərazilərinin, meşə və yaşıllıq sahələrinin artırılması və s. istiqamətlərdə həyata keçirilmiş layihələr ətraf mühitin komponentlərinin bərpasında rol oynayır.

Aztullantılı texnologiyalardan istifadə, neftlə çirklənmiş ərazilərin reabilitasiyası, su hövzələrinin ekoloji vəziyyətinin bərpa olunması, yaşıllaşdırma işlərinin həyata keçirilməsi xüsusi ilə Abşeron yarımadasının kəndlərində, Bakı və Sumqayıt şəhərlərində ətraf mühitinin vəziyyətinin yaxşılaşması ilə nəticələnmişdir [5].

Növbəti illərdə rayon və kəndlərdə su ehtiyatlarından səmərəli istifadə, tullantıların səmərəli idarə edilməsi, hirdometeoroloji müşahidə və ətraf mühitin monitorinqi sistemlərinin inkişaf etdirilməsi, bioloji müxtəlifliyin və ekosistemlərin qorunması, meşə və yaşıllıqların artırılması, torpaqların mühafizəsi və bərpası, alternativ enerjidən və ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi istiqamətlərində ETSN, həmçinin digər əlaqəli dövlət orqanları qarşısında mühüm hədəflər qoyulmuşdur.

## ƏDƏBİYYAT


1. 2012-ci il 29 dekabr tarixli Fərman ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişafı Konsepsiyası.
2. 2019-2023-cü illər Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
3. Ə.Nuriyev “Regional siyasət və idarəetmənin əsasları”.Bakı 2011.s.49-51.
4. Azərbaycan Respublikasının prezidentinin, İşğaldan azad olunmuş Qarabağ torpaqlarında müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 2020-ci il 29 oktyabr tarixli Fərmanı.
5. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində apardığı ilkin qiymətləndirmə missiyasının nəticəsinə dair hesabat.

***Илаха Муслум кызы Каримова***
***Магистрант АКУ***
***kerimova.ilahe2022@gmail.com***
***Улькер Халил кызы МАХМУДОВА***
***доктор философских наук по географии, доцент***

**Экологическая ситуация в сельской местности Азербайджана и ее социальные последствия**

***Резюме***

После обретения независимости Азербайджан столкнулся с различными проблемами, в том числе с экологическими проблемами, и следует учитывать взаимное влияние их глобального и национального аспектов. Реконструкция и восстановление районов и сел, территорий, освобожденных от оккупации, многие важные вопросы представлены в данной статье.

***Ключевые слова: Социальная, экологическая ситуация, сельская социология, экологическое положение граждан.***

***Ilaha Muslum KARIMOVA***
***master, AKU***
***kerimova.ilahe2022@gmail.com***
***Ulker Khalil MAHMUDOVA***
***Doctor of Philosophy in Geography, Associate Professor***

**Environmental situation in rural areas of Azerbaijan and its social consequences**

***Summary***

After gaining independence, Azerbaijan faced various problems as well as ecological problems, and the mutual influence of their global and national aspects should be taken into account. Reconstruction and restoration of regions and villages, territories freed from occupation, many important issues are presented in this article.

***Key words: Social, ecological situation, rural sociology, ecological situation of citizens.***